*Əlavə 1/11*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 18.04.11 il tarixli, 44 nömrəli əmri ilə təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi**
**Şirkətdaxili işçilərin vakansiyaya iddia etməsi**
(SOCARSS – 018.2011)

---

**01.1 Standartlaşmanın məqsədi** – Şirkət üzrə elan edilmiş vakansiyaların doldurulmasına ilkin hüququ olan ARDNŞ-nin işçiləri tərəfindən təqdim edilən müraciətlərinin (ərizələrinin) qəbulu, işçilərin müsahibəyə buraxılması ilə əlaqədar münasibətlərin tənzimlənməsidir. Standartlaşmanın məqsədinə dair bu standart sənədlə tənzimlənməyən digər məsələlər məsul qurumun müvafiq qaydada təsdiqlənmiş iş planına əsasən tənzimlənir.

**01.2 Vakansiyaların elan olunması** – siyahısı müvafiq standartla müəyyən olunmuş vəzifələr istisna olunmaqla bütün vəzifələr üzrə vakansiyalar müsabiqə yolu ilə doldurulmaq üçün ilk növbədə ARDNŞ-nin daxili portalında (İntranet) açıq elan olunur.

**01.3 Rəhbər işçi vakansiyalarının doldurulması** - siyahısı müvafiq standartla müəyyən olunmuş vəzifələr istisna olunmaqla, bütün rəhbər işçi vəzifələri üzrə vakansiyalar müvafiq müəssisə tərəfindən daxili kadr ehtiyatı hesabına doldurula bilər. Bu zaman müəssisə rəhbəri 1 ay müddətində vakant vəzifəyə vakansiyanın mövcud olduğu və ya eyni funksiyaları həyata keçirən digər struktur bölməsində (şöbə, sex, qurğu, sahə, xidmət və s.) çalışan ən yüksək eyni dərəcəli mütəxəssislərdən birini təyin edə bilər. Bu müddət ərzində doldurulmamış vakansiya müsabiqə üçün açıq elan olunmalıdır.

**01.4 Ştat yerlərinə iddia hüququ** - Bu standartın 01.2 və 01.3-cü bəndləri nəzərə alınmaqla, işçi aşağıdakı ştat yerlərinə iddia edə bilər:

a) vakansiyanın yerləşdiyi müəssisənin ierarxiya pilləsi üzrə:

1. Bir müəssisə, o cümlədən müəssisənin struktur bölməsi daxilində başqa ştat yeri;
2. Eyni ierarxiya pilləsində olan digər müəssisədə ştat yeri;
3. İerarxiya üzrə yuxarı pillə üzrə müəssisədə ştat yeri;
4. İerarxiya üzrə aşağı pillə üzrə müəssisədə ştat yeri.

b) vakansiyanın yerləşdiyi müəssisənin ierarxiya pilləsindən asılı olmayaraq, əməyin ödənilmə dərəcəsi (ƏÖD) üzrə:

1. ƏÖD eyni olan ştat yerinə;
2. ƏÖD aşağı olan ştat yerinə;
3. ƏÖD yuxarı olan ştat yerinə;

c) vakansiyanın yerləşdiyi müəssisənin ierarxiya pilləsindən asılı olmayaraq, işçi kateqoriyaları üzrə:

1. Fəhlə mütəxəssis vəzifəsi üzrə ştat yerinə;
2. Texniki işçi mütəxəssis vəzifəsi üzrə ştat yerinə;
3. Mütəxəssis digər mütəxəssis vəzifəsi üzrə ştat yerinə;
4. Mütəxəssis rəhbər işçi vəzifəsi üzrə ştat yerinə;
5. Rəhbər işçi mütəxəssis vəzifəsi üzrə ştat yerinə ya;
6. Rəhbər işçi digər rəhbər işçi vəzifəsi üzrə ştat yerinə.

01.5 **İddia barədə məlumatlandırma** - Vakansiyaya iddia edən işçi müsabiqədə iştirak etmək istəyi barədə işlədiyi struktur bölməsinin rəhbərini məlumatlandırmalıdır. Məlumat vərəqinin forması ARDNŞ-nin müvafiq standartı ilə tənzimlənir. Məlumat forması müvafiq rəhbər işçi (işdə olmadıqda – onun vəzifələrini icra edən işçi) tərəfindən 2 iş günü müddətində imzalanmalıdır. O, işçinin iş yerini dəyişmək istəyinə özünün müsbət və ya əsaslandırılmış mənfi münasibətini məlumat formasında yazılı şəkildə bildirməlidir. Rəhbər işçinin iddiaçını müsabiqəyə buraxmamaq ixtiyarı yoxdur.